| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 30.06.2020 |
| QEYDİYYAT NÖMRƏSİ | 153-VIQD |
| ADI | “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 11-08-2020, Nəşr nömrəsi: 156), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2020, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 1014) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 11.08.2020 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 380.050.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12202006300153 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 12.08.2020 |

**"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 1, maddə 10, 6, maddə 414; 2001, 5, maddə 293, 11, maddə 687, 12, maddə 740; 2002, 5, maddə 241, 6, maddə 328, 12, maddə 706; 2004, 5, maddə 318; 2005, 4, maddə 281, 8, maddə 699, 10, maddə 903, 11, maddə 993; 2007, 1, maddə 4, 2, maddə 69, 8, maddə 745, 11, maddələr 1053, 1075; 2008, 6, maddə 462, 7, maddə 602; 2009, 1, maddə 5, 7, maddə 517, 11, maddə 878; 2010, 7, maddə 597, 11, maddə 938; 2011, 4, maddə 258, 12, maddə 1098; 2012, 10, maddə 946; 2013, 11, maddə 1271; 2014, 11, maddə 1353; 2015, 5, maddə 487; 2016, 1, maddə 11, 7, maddə 1243, 12, maddə 2025; 2017, 2, maddə 148, 12 (I kitab), maddə 2236; 2018, 7 (I kitab), maddə 1388, 8, maddə 1673, 11, maddə 2230; 2019, 1, maddə 22, 6, maddələr 993, 997, 11, maddə 1681) 32-ci maddəsinin on ikinci-on dördüncü hissələri müvafiq olaraq on üçüncü-on beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda on ikinci hissə əlavə olunsun:

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar borclu şəxslərlə bağlı notariat hərəkətləri (vərəsəlik, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələr, müqavilələr və etibarnamələr) və vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatlar icra məmurlarına elektron sorğular əsasında real vaxt rejimində verilir."

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 iyun 2020-ci il
153-VIQD